# YENİ TAMAŞA HAZIRLANMIŞDIR

Qəbələ Rayon Mədəniyyət Mərkəzində fəaliyyət göstərən İsmayıl Bəy Qutqaşınlı adına Xalq Teatrında dramaturq Kamal Nemətin "Təzə xadimə" pyesi yeni quruluşda tamaşaya qoyulmuşdur.



Tamaşanın quruluşçu rejissoru Xəyal Gəncimov, rəssamı Malik Ağayev, musiqi tərtibatçısı Rəsul Hacıyev, səs operatoru Maqsud Kərimov və işıqçısı Süleyman Yaqubovdur.

Rolları Xəyal Gəncimov, Afət Əliyeva, Elşən Salehov, Şəbnəm Kamallı, Zümrüd Yusifova, Şahanə Vəlizadə, Günel Vahabova, Tural Məsimov, Cahanə Əzizova və Fərid Aslanlı ifa etmişlər.

Yeni quruluşda səhnə təcəssümü tapan tamaşa xalq teatrının yaradılmasında və inkişafında böyük xidmətləri olmuş teatrın mərhum aktyoru Kamal Osmanlının xatirəsinə həsr olunmuşdur. Teatrda bu ənənənin davam etdiriləcəyi, vaxtilə teatrda çalışmış, hazırlanan tamaşalarda uğurla çıxış etmiş hər bir aktyorun və rejissorun əziz xatirəsinə həsr olunan yeni-yeni səhnə əsərlərinin tamaşaya qoyulacağı nəzərdə tutulmuşdur.

Geniş tamaşaçı kütləsi üçün hazırlanan səhnə əsərinin aprelin 15-də premierası olmuş və əsər tamaşaçılarda xoş təəssürat yaratmışdır.

**Anar RÜSTƏMLİ.**
**Foto S. Umuyevindir.**

# Hər dərdin öz dərmanı...

Deyirlər, dünyada elə dərd yoxdur ki, Onun dərmanı olmasın. İntəhası dərd var ki, onun dərmanı tapılıb, dərd var ki, hələ də dərdlilərə dərd verir.

Amma bu, o demək deyil ki, onun dərmanı yoxdur. Əgər belə olsaydı onda keçmiş keçənlərimiz bu müdrik kəlamı gətirib bizə ərməğan qoymazdılar: «Hər dərdin bir dərmanı var!»

Dərmanın kökünü, binəsini bitkilər adına bağlayıb loğmanlar. Bəlkə də insanla dünyaya bir gəlib, onun hər yüksəlişinin, hər alçalışının şahidi olan bitkilər. Novruz gələli onlar da insanlar təki oyanır, qanları qaynayır, bətinlərində həyatı duyub tərpəşir, torpaqdan baş qaldırırlar. Deməli, həyat onlarda başlayır, davm eyləyir, ölür...

İndi artıq yurdumuza yaz ayaq açıb. Düzü-dünyanın bitki adına, yaşıllıq adına nəyi varsa, yerindəcə oyanmaqda, torpağın bətnindən sıyrılıb çıxmaqdadır, Şanlı günlər ötəcək, dünya ala, yaşıla bürünəcək, insanlar da dünyanın min bir rənginin seyrinə dalacaq, yeyəcək, içəcək, oynayacaq, oxuyacaq, ağrısı da olacaq, acısı da...

Yaxanızı heç ağrı-acı tanımasın, amma içinizdə eləsi də olacaq ki, nasazlaşacaq. Onda məbadə yazın hökmüylə ana təbiətin qucağında boy-boya duran hər bitkini dərib evə gətirəsiniz, «bu sağaldar, bu yaxşı dərman bitkisidir»—deyib hər əlinizə düşəni qəbul edəsiniz. Bilin ki, hər otun, hər pencərin öz yeri, öz şəfası var.

Misalçın, elə götürək **kəsəb** otunu:—zəhərlidir. Səriştəli çoban heç vaxt malıdavarı həmin otun bitldiyi sahəyə buraxmaz. Amma qaldı ki, kəcəb lap qədimdən dava-dərman bitkisi sayılıb. Orası var ki, gərək bununla ehtiyatlı dolanasan, əvvəlcə kəsəbi yığandan sonra yaxşıca qurutmaq lazımdır. Bundan sonra kəcəb olur kara gələn. Onu növbənöv xörəklərə qat, gör nə dad verir. Üstəlik də qarında, bağırsaqlarda olan ağırlaşmaları kəsir.

Ya da elə götürək **çayçiçəyini.** Çiçəklərini dəmlə, iç. Qan təzyiqi yuxarı olanlara ən çox çayçiçəyi içmək məsləhət görülür.

**Böyürtkən** yarpağını əzib ağrıyan dişin üstünə qoyarsan, ağrısı kəsilər.

**Dovşanalması** deyilən bitgi var. Meyvələri yeməli olur. Dəmrov deyilən dəri xəstəliyinin dərmanıdır. Budağını yandırıb soyuyandan sonra dəmrovun üstünə qoy, vəssalam, baxıb görəcəksən, sağalıb, itib.

**Yemişanın** həm ağacının, həm də meyvəsinin insana böyük xeyri var. Bunları tapıb dəmləsən, içərsən, başağrısı, başgicənlənməsi sənnən vaz keçər: quş kimi yüngül olarsan. Əmzikli anaların da yemişan meyvəsi xeyirlidir. Belə ki, südü artırar, duruləşdırar.

**Darçın** həzmə yaman kömək eləyəndir, qıcqırmanın da ki, qənimidir.

**Boymadərən** ağrıları kəsir, qanı təmizləyir, həm də artırır.

**Əzvayı** dibcəkdə də yetişdirmək olar. Mədə-bağırsaq nasazlığı vaxtı əzvay misilsiz kömək edir.

**Nanə** mədə ağrısının qənimidir.

**Topladı: N. ATAKİŞİYEV.**



## Əzizimiz Ümüd!

**9 yaşının tamam olması münasibətilə atan, anan, bacıların, nənələrin, əmin, bibin, dayıların, xalan səni təbrik edirlər.**

## ELANLAR

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti 9 saylı ərazi idarəsi tərəfindən Qəbələ şəhər sakini Osmanov Şalbuz Tapdıq oğluna məxsus torpaq sahəsinə verilmiş RX 0182928 №-li çıxarış və AA 016324 №-li texniki pasport itdiyi üçün etibarsız sayılır.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti 9 saylı ərazi idarəsi tərəfindən Musayev Paşa İsmayıl oğluna məxsus olan Mamaylı kəndindəki 0,44 ha torpaq sahəsinə 10.03.2011-ci il tarixdə verilmiş 0162387 №-li çıxarış və 09.03.2011-ci il tarixdə verilmiş 406-22/27 №-li texniki pasport itdiyi üçün etibarsız sayılır.

## BİLDİRİŞ-MƏLUMAT



**Hörmətli vergi ödəyicisi!**

Əgər siz sahibkarlıq fəaliyyətinin göstərilməsi məqsədilə hər hansı obyekti icarəyə götürüb fəaliyyət göstərirsinizsə, o halda həmin obyektin sahibi ilə icarə müqaviləsi bağlanmalıdır.

Vergi inzibatçılığı məqsədləri üçün hüquqi şəxslə hüquqi şəxs arasında bağlanmış icarə müqaviləsi istisna olmaqla, digər şəxslər arasında bağlanmış icarə müqavilələri notarial qaydada təsdiq olunmalıdır.



Ödəmə mənbəyində icarə məbləğindən vergini tutan şəxslər ödənilən icarə məbləğindən 14% dərəcə ilə vergini tutaraq gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və "Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi"-ni vergi orqanına təqdim etməlidirlər.



Xatırladırıq ki, vergi qanunvericiliyinin pozulmasına görə gəliri ödəyən hüquqi və fiziki şəxslərə Vergi Məcəlləsi ilə müəyyən edilmiş maliyyə sanksiyaları və faizlər tətbiq edilir.

Əlavə məlumat almaq üçün Vergi ödəyicilərinə xidmət mərkəzlərinə və Vergilər Nazirliyinin "195" Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyi.**

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Qəbələ Müalicə-Diaqnostika Mərkəzi aşağıda adları qeyd olunmuş xərc maddələri üzrə katirovka sorğusu ELAN EDİR

1. Digər alışlar və xidmətlər.
2. İnventarın alınması xərcləri.

Sorğular 20 may 2015-ci il tarixinə kimi qəbul olunur.

**Əlaqə telefonu:** 024-20-5-41-58.

**Tender komissiyası.**

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi:
A. C. Cəlilov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospektii, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.